

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 mart 2026-cı il №19 (3021) https://mod.gov.az Qiyməti 30 qəpik

## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Martın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş raket hücumunu qınayıb, qardaş Türkiyə xalqına dəstəyini ifadə edib.

Rəcəb Tayyib Ərdoğan telefon zənginə və mövqeyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

## Türkiyə Respublikasının ərazisinə qarşı raket hücumu ilə bağlı bəyanat

Türkiyə Respublikasının ərazisinə qarşı həyata keçirilmiş və Qaziantep üzərində zərərsizləşdirilmiş raket hücumunu qətiyyətlə pisləyirik.

Bu cür əməllər regional sülh və təhlükəsizlik üçün ciddi təhdid yaradır və qəbuledilməzdir.

Biz qardaş Türkiyə Respublikası ilə tam həmrəyliyimizi ifadə edirik. Türkiyə hökumətinin əhalisinin və ərazisinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində səylərinə dəstək veririk.

Azərbaycan Türkiyənin yanında qətiyyətlə dayanır.

*Reportaj*

## Ürəyimizin döyüntüsü Vətənlə bağlıdır



Dan yeri təzə sökülüb. Qış fəsli olmasına baxmayaraq səhər günəşi dağların arasından boylanmaq istəyir. Getdiyimiz yol uzandıqca başı qarlı dağların tən ortasında günəş daha da közərməyə və öz varlığını bizlərə hiss etdirməyə başlayır. Dağın başında və ətəyində toplanmış qar sanki səmanın yerə enmiş sükutudur. Zirvələrin başı ağ tac olaraq göylərə toxunur. Dağlarda topalanmış qar kütləsi sanki illərin nisgilini öz sinəsinə çəkib. Təbiətin qurduğu bu səssiz tamaşanı izləyə-izləyə yol gedirik, məsafə qısalır. Bayaq kiçik görünən dağlar da, ürəyimizdəki heyrət də get-gedə böyüyür. Gün işığının toxunduğu qarların əriyib ətəklərdən süzülməsi artıq gözümüzün önündədir. Zaman ötür, gedəcəyimiz ünvan yaxınlaşır və düşüncələrim məni ağuşuna alır. Düşünürəm: Vaxtilə hər qarışı uğrunda ağır döyüşlərin getdiyi, neçə igidlərin can verdiyi bu tarixi ərazilərimiz bu gün burada döyüş növbətçiliyi aparan əsgərlərimizin nəfəsi ilə isinir. Məlumdur ki, dağlıq ərazi həm kəskin iqlim, həm də çətin relyef şəraiti ilə seçilir. Yol yoldaşımız zabit Feruz Abbasov bu dağlarda bir neçə gün əvvəl şaxtalı, sazaqlı günlərin keçdiyini deyir, lakin son iki günün qismən mülayim olduğunu qeyd edir.

Nəhayət, Vətən torpağı hüdudlarımızın sonu olan müqəddəs ünvana çatırıq. Bölmənin şəxsi heyəti təlimat üçün düzülüb. Gizir Malik Ağayev məruzəsini bitirdikdən sonra özü ilə bağlı qısa məlumat verir. "Əslən Kürdəmir rayonundanam. 15 ildir ordu sıralarında xidmət edirəm. Qardaşlarım Təbriz və Tarix də mənim kimi hərbçidirlər. Vətənpərvər ailədə doğulmuşam. Vətənpərvərliyi də ailəmdə öyrənmişəm, müddətli həqiqi hərbi xidmətdə olarkən mahiyyətini dərindən dərk etmişəm. Böyüklərimin, doğmalarımın Vətənə bağlılığı mənim və qardaşlarımın yolunu bu müqəddəs peşəyə bağlayıb.

(Ardı 2-ci səhifədə)

## Milli təhlükəsizlik strategiyasının etibarlı təminatı

Müstəqil Azərbaycanın dövlətçilik siyasətində ordu quruculuğu hər zaman prioritet istiqamətlərdən biri olub. Silahlı Qüvvələrin gücü və peşəkarlığı ölkənin suverenliyinin, ərazi bütövlüyünün etibarlı müdafiəsinin əsas təminatıdır. Müasir dövrdə qlobal və regional təhlükəsizlik mühitində baş verən dəyişikliklər ordunun davamlı şəkildə modernləşdirilməsini, döyüş qabiliyyətinin artırılmasını və idarəetmə sisteminin təkmilləşdirilməsini zəruri edir.

Azərbaycan Respublikasında ordu quruculuğu prosesi sistemli, məqsədyönlü və mərhələli şəkildə həyata keçirilir. Belə ki, Silahlı Qüvvələrin maddi-texniki bazası gücləndirilib, hərbi hissələrin infrastrukturu yenilənib, müasir silah və texnika ilə təminat yüksək səviyyəyə çatdırılıb. Orduda nizam-intizamın möhkəmləndirilməsi, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, hərbi təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm işlər həyata keçirilib.

Azərbaycanda ordu quruculuğu strategiyasının əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. 1993-cü ildə ölkədə yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dövlətçiliyin xilası ilə yanaşı, nizami ordunun yaradılması qarşıya əsas vəzifə kimi qoymuşdu. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə zəruri islahatlar nəticəsində ölkədə pərakəndə halında olan silahlı dəstələr ləğv edildi, vahid komandanlıq yaratmaq prinsipi bərqərar olundu.

(Ardı 3-cü səhifədə)

## Fədakarlığın ən ali ifadəsi

Azərbaycan tarixində şəhidlik anlayışı hər zaman müqəddəs tutulub. Vətən uğrunda döyüşən igidlər əsrlər boyu xalqımızın qəhrəmanlıq salnaməsini yazıblar. Xüsusilə Qarabağ uğrunda aparılan mübarizədə minlərlə qəhrəman övladımız şəhidlik zirvəsinə ucalaraq tarixə adlarını qızıl hərflərlə yazdırdı. Onların qanı ilə suvarılan torpaqlar bu gün azadlığın və qürurun simvoluna çevrilib.

Şəhidlər təkcə bir ailənin övladı deyil, bütöv bir xalqın qürurudur. Onların adı çəkiləndə hər bir azərbaycanlının ürəyində həm kədər, həm də böyük bir fəxarət hissi doğur.

(Ardı 4-cü səhifədə)

## Ötən həftə 23 mina və 743 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən martın 2-9-da icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC -a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 8, tank əleyhinə 15 mina və 743 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1191,2 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Dörd temperament - bir ordu: psixoloji balansın əhəmiyyəti

Əvvəlki yazılarda bildirdiyimiz kimi ordu psixoloqları hər bir hərbi qulluqçunun fərdi psixoloji xüsusiyyətlərini öyrənirlər. Öyrənmə zamanı onların psixoloji dayanıqlığı, ekstremal şəraitlərdə qərar qəbuletmə və digər bir neçə vacib psixoloji xüsusiyyətlərini müəyyən edirlər. Burada hər fərd düşdüyü müxtəlif vəziyyətlərə görə müxtəlif reaksiya verir, ətraf mühiti individual bacarıqlarına görə qavrayır. Hərbçilərin duyğu və qavrayışı geniş mövzu olsa da, buna qısa nəzər salaq.

Duyğu və qavrayış nədir? Qısa dillə desək, daxili və xarici təsirlərə qarşı psixoloji reaksiyalarımız duyğu, ətrafda baş verənləri hisslər vasitəsi ilə dərk etməyimiz isə qavrayış adlanır.

Hərbçi peşəsi yüksək daxili intizam tələb edir. Maraq sahəsinin məhdudluğu öz növbəsində monoton və standartlıq yaradır. Çərçivələnmiş sosial həyat hərbçidə müəyyən psixi yüklənmələr əmələ gətirə bilir. Belə olan təqdirdə hərbçinin şəxsi fərdi xüsusiyyətləri ona gündəlik fəaliyyətini təmin etməkdə yardımçı olur.

(Ardı 6-cı səhifədə)

## İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək

Martın 10-13-də istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

"Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyi çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq", - deyə məlumatda qeyd edilib.

# Ürəyimizin döyüntüsü Vətənlə bağlıdır

(Əvvəli 1-ci səhifədə)

Vətənimin müxtəlif nöqtələrində xidmət etmişəm, xidmət etdiyim ərazilər daha çox yüksəkliklər olub. Ən müqəddəs amalım isə Vətənə layiqincə xidmət etmək və üzərimə düşən vəzifələri ləyaqətlə yerinə yetirməkdir. Təcrübəli komandirlərimizin rəhbərliyi altında bu günün Vətən müdafiəçisi oğullarını əsl döyüşçü kimi yetişdirmək işində öz dəstəyimizi göstəririk", - gizir deyir.

Gizir M.Ağayevlə söhbətləşərək şəxsi heyətə doğru irəliləyirik. Bölmənin şəxsi heyəti günün nizam qaydalarına uyğun olaraq növbətçiliyin təhvil-təslimi üçün düzülüb.

"Təlimat əsnasında şəxsi heyətə təhlükəsizlik qaydaları, xidmətin təşkili, qarşıya qoyulan tapşırıqlar və digər zəruri məlumatlar çatdırılır.





Sülh şəraiti olmasına baxmayaraq, biz arxayınlaşmırıq. Döyüş növbətçiliyini şəxsi heyət ayıq-sayıq şəkildə təşkil edir. Üzərilərinə düşən ali vəzifəni dərindən dərk edən əsgərlərimiz bilirlər ki, müqəddəs vəzifə - Vətəni qorumaq xalqa sədaqətlə xidmət etməkdir. Onların xidmətini düzgün təşkil etməsi üçün bölməmizdə həm xidməti, həm də gündəlik zəruri fəaliyyətlərin icrası üçün arzulunan şərait yaradılıb. Onların qayğıları ilə maraqlanır, həlli istiqamətində komandirlərimiz zəruri addımlar atırlar.

Bölməmizdə hərbi mühitdən öncə doğma mühit formalaşıb", - deyən Malik Ağayevlə söhbətimizi başa vururuq.

Əsgər Kamal Şirinov qeyd edir ki, döyüş növbətçiliyini minlərlə metr yüksəklikdə yerləşən Vətən hüdudlarında aparmaq çox gözəl və qürurvericidir. "Vətəni qorumaq hər birimiz üçün övladlıq və vətəndaşlıq borcudur. Bunun üçün də isti-soyuq, gecə-gündüz demədən xalqın firavanlığını və bölgədəki sülhü qoruyuruq. Metrlərlə yüksəklikdə, ata-babalarımızdan bizə miras qalan Vətən torpağında xidmət etmək hər birimiz üçün misilsiz fəxrdir. Vətən ön plana çıxırsa, heç nə bizə müqəddəs vəzifəmizi icra etməkdə mane ola bilməz. Çünki Öncə Vətəndir! Vətən əbəs yerə Ana Vətən adlanmır. İkisi də bir övlad üçün ali məfhumdur. İkisinə də canınla və qanınla bağlı olursan. Xidmətdə keçən günlərim həyatımın ən unudulmaz dövrü olaraq daim xatirəmdə yaşayacaq. Burada özümə çoxlu dost qazanmışam, misilsiz həyat təcrübəsi əldə etmişəm. Ən böyük arzum üzərimə düşən övladlıq borcumu şərəfli və qüsursuz xidmətimlə ödəyib, yaxınlarımın və doğmalarımın yanına başıuca qayıtmaqdır".

Növbəti müsahibim döyüş növbətçiliyini təhvil alan əsgər Roman Ələkbərov əslən Tovuz rayonundandır. "Bu gün bu gözəlliklərin əhatəsində qalib ordunun əsgəri olaraq xidmət edirəm. Artıq bir neçə ildir ki, bu ərazilərin həqiqi sahibləri, yəni, bizlər ona nəzarət edir, onu qoruyur və müdafiə edirik. İşğaldan azad olunmuş ərazilərimizdə bu gün şanlı Üçrəngli Bayrağımız dalğalanır. Zirvələr hər zaman bayrağımızın dalğalandığı yer olacaq. Dalğalanan bayrağımız ərazi bütövlüyümüzün təmin olunmasının, canı və qanı ilə tarix yazan şəhidlərimizin qisasının alınmasının bariz göstəricisidir. O bayrağımızın daim dalğalanması üçün xidmət edirik. Vətənimizi öz evimiz kimi qoruyuruq", - əsgər deyir.

Sonuncu müsahibim Ucar rayonundan olan əsgər Rasim Ələkbərovdur. "Fərqli mühitlərdən, fərqli evlərdən gəlsək də, burada məramımız bir, vəzifəmiz birdir - Vətəni qorumaq. O Vətənin hər qarışı şəhidlərimizin, ata-babalarımızın qanı ilə yoğurulubsa, onu qorumaq həm sevgidir, həm də sədaqət. Ürəyimizin döyüntüsü Vətənlə bağlıdır. Varlığımız Vətənlə bağlıdır. Əcdadlarımızdan bizə miras qalan torpaqlarımızı inamla qoruyur, üzərimizə düşən məsuliyyəti dərindən anlayır, xidmətimizi böyük ruh yüksəkliyi ilə təşkil edirik. Torpağımızın hər qarışı bizə doğmadır, Vətənlə bağlı olan hər şey bizim üçün əzizdir. Qalib ordunun hərbi mundirini daşıdığım üçün qürurluyam. Qalib ordu mundiri ilə Vətəni layiqincə qorumaq həm vətəndaşlıq, həm də övladlıq borcumuzdur", - əsgər qeyd edir.



Vətənə övladlıq və vətəndaşlıq borcunu ödəyən igid oğullarımızla sağollaşıb, onlara gələcək xidmətlərində və həyatlarında uğurlar arzulayıb, bölmədən yüksək əhvali-ruhiyyə ilə ayrılırıq. Burada gördüklərimiz və eşitdiklərimiz bizi bir daha əmin edir ki, Vətən müdafiəçisi oğullarımız öz sələflərinin yolunda inamla, mətin addımlarla irəliləyirlər. Və bu irəliləyiş illərin keşməkeşli yollarından keçib, lakin qorunub saxlanılmış misilsiz sevgi olan vətənpərvərliyi daim yaşadır. Bu gün dağ vüqarlı oğullarımızın vətənpərvərliyindən, məğrurluğundan aldığım müsbət təəssüratlar ata-babalarımızın yüz illər boyu ürəyində daşıdığı Vətən məşəlinin eynisidir. Bu məşəl dünənimizi işıqlandırıb və isidib, sabahımızı da həm işıqlandırır, həm də isidir. Vətən müdafiəçisi oğullarımız var olduğu müddətdə Azərbaycan xalqının əzmi heç zaman sarsılmaz. Dağ vüqarlı oğullarımız varsa, deməli, Vətən etibarlı əllərdədir.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## Kursantların təcrübə prosesi davam edir



Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı və Naxçıvan Hərbi Kolleclərinin kursantları orta ixtisas təhsili proqramının tələblərinə uyğun olaraq nəzəri biliklərini praktik bacarıqlarla möhkəmləndirmək məqsədilə müvafiq hərbi hissə və təşkilatlarda istehsalat təcrübəsi keçirlər.

Milli Müdafiə Universiteti xəbər verir ki, təcrübə çərçivəsində kursantlar hərbi xidmətin əsas istiqamətləri üzrə praktiki məşğələlərə cəlb olunur, müasir texnika və avadanlıqlardan istifadə bacarıqlarını inkişaf etdirirlər. Eyni zamanda, hərbi intizamın möhkəmləndirilməsi, məxfilik rejiminə və texniki təhlükəsizlik qaydalarına ciddi riayət olunması istiqamətində vərdişləri təkmilləşdirilir.

Keçirilən istehsalat təcrübəsi kursantların gələcək xidməti fəaliyyətlərə sistemli şəkildə hazırlanmasında mühüm rol oynayır, onların ixtisas üzrə bilik və bacarıqlarının dərinləşdirilməsinə, peşəkar vərdişlərin formalaşdırılmasına və real xidmət şəraitinə uyğunlaşmasına geniş imkanlar yaradır. Bununla yanaşı, təcrübə prosesi zamanı kursantlarda məsuliyyət hissi güclənir, müstəqil qərarvermə və kollektivlə işləmək bacarıqlarının inkişaf etdirilməsi təmin olunur.

## Hərbi Tibb Fakültəsinin kursantları Simulyasiya Mərkəzində təlimlərə cəlb olunublar



Hərbi Tibb Fakültəsinin Hərbi feldşer hazırlığı kursunun 3-cü kursunda təhsil alan kursantlar İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Bakı Sağlamlıq Mərkəzi kompleksində yerləşən Simulyasiya Mərkəzində təşkil edilən təlimlərdə iştirak edirlər.

Milli Müdafiə Universiteti xəbər verir ki, təlimlər zamanı kursantlar müasir tibbi simulyasiya avadanlıqlarından istifadə etməklə təcili tibbi yardımın göstərilməsi, ilkin tibbi müdaxilə, reanimasiya tədbirləri və digər vacib praktiki bacarıqlar üzrə bilik və vərdişlərini təkmilləşdirirlər.



Bu təlimlər kursantların nəzəri biliklərinin praktiki tətbiqini gücləndirməyə, real şəraitə yaxın mühitdə tibbi qərarvermə bacarıqlarını inkişaf etdirməyə və onların gələcək xidmət fəaliyyətinə daha hazırlıqlı olmalarına xidmət edir.

*Ordu quruculuğu*

# Milli təhlükəsizlik strategiyasının etibarlı təminatı



(Əvvəli 1-ci səhifədə)

Orduda peşəkar kadr potensialının formalaşdırılması məqsədilə hərbi təhsil sisteminin inkişafına xüsusi diqqət yetirildi və peşəkar zabit kadrlarının hazırlığı prosesi gücləndirildi, Silahlı Qüvvələrdə struktur islahatları aparıldı, qanunvericilik bazası təkmilləşdirildi və hərbi quruculuq sahəsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Dahi Rəhbər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs gələcək hər uğurun möhkəm təməlini formalaşdırdı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin məqsədyönlü və zəruri islahatları nəticəsində ordu quruculuğu keyfiyyət baxımından yeni mərhələyə qədəm qoydu. Son illər ərzində müdafiə sahəsinə ayrılan vəsaitin əhəmiyyətli dərəcədə artırılması Silahlı Qüvvələrin maddi-texniki təminatının gücləndirilməsinə geniş imkanlar yaradıb. Ordunun silahlanmasına ən müasir texnologiyalara əsaslanan silah və hərbi texnika daxil edilib, xüsusilə yüksək dəqiqlikli silah sistemləri və pilotsuz uçuş aparatları (PUA) arsenalın mühüm tərkib hissəsinə daxil olub. Eyni zamanda, yerli hərbi sənaye kompleksinin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, müdafiə sənayesi müəssisələrinin fəaliyyəti daha da genişləndirilib.

Azərbaycan Ordusunda idarəetmə sistemi təkmilləşdirilib, komando hərbi hissələri yaradılıb, xüsusi təyinatlı bölmələrin döyüş hazırlığı gücləndirilib. Müntəzəm olaraq keçirilən genişmiqyaslı hərbi təlimlər şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və qoşun növləri arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə səbəb olub. Bununla yanaşı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, yeni hərbi şəhərciklərin və yaşayış komplekslərinin inşası, əməkhaqqı və sosial təminatın artırılması istiqamətində görülən işlər dövlətin hərbi qulluqçulara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində ordumuzun qazandığı tarixi Zəfər Azərbaycan dövlətinin uzun illər ərzində həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasətinin real nəticəsini nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu işğal altında olmuş əraziləri düşməndən azad etdi və xalqımıza tarixi Zəfərin sevincini bəxş etdi. Müasir silah sistemlərinin tətbiqi, peşəkar idarəetmə və yüksək döyüş qabiliyyəti, milli ruh qısa müddətdə strateji üstünlüyün əldə edilməsini təmin etdi. Bu cəsarət, bu çeviklik Azərbaycan Ordusunun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Xalqımızın vətənpərvər oğulları öz qəhrəmanlığı, Vətənə olan sonsuz sevgisi ilə şanlı tarix yazdılar. Qazanılan tarixi Zəfər ordu quruculuğu sahəsində həyata keçirilmiş zəruri islahatların nəticəsi kimi tarixə düşdü.

Müharibədən sonra azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunması, yeni hərbi infrastrukturun yaradılması və müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istiqamətində tədbirlər davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə Qarabağ iqtisadi rayonunda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Bərpa-quruculuq işlərinin sürətli icrası regionun dayanıqlı inkişafına xidmət edir. Bu proses Azərbaycanın hərbi-siyasi qələbəsinin iqtisadi və sosial müstəvidə möhkəmləndirilməsinin göstəricisidir.

Bu gün Azərbaycanın Silahlı Qüvvələri regionun ən güclü ordusu kimi qəbul olunur. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu strategiyası və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Ordusu müasir, peşəkar və yüksək döyüş qabiliyyətinə malik hərbi qüvvəyə çevrilib. Güclü ordumuz Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və davamlı inkişafının əsas təminatıdır. Silahlı Qüvvələrimizin əldə etdiyi uğurlar göstərir ki, ölkəmizin təhlükəsizliyi etibarlı əllərdədir və Azərbaycan əsgəri hər zaman Vətənin keşiyində qətiyyətlə dayanmağa qadirdir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

*Atəş hazırlığı*

# “Atəş hazırlığı döyüş qabiliyyətimizə müsbət təsir göstərir”

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu bu gün öz inkişafının ən parlaq dövrünü yaşayır. Dövlət başçısının ordu quruculuğuna göstərdiyi xüsusi diqqət və qayğı ordumuzun maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılmasına, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına və döyüş ruhunun sarsılmazlığına xidmət edir. Bu diqqətin nəticəsidir ki, Azərbaycan əsgəri bu gün ən müasir silah sistemləri ilə təmin olunub və hər an Vətənin müdafiəsinə hazırdır. Ordumuzun arsenalına daxil edilən yeni nəsil texnikalar, hərbi sənaye kompleksinin inkişafı və beynəlxalq təlimlərdə əldə olunmuş təcrübə bizi regionun ən qüdrətli hərbi gücünə çevirib.*





Azərbaycan Ordusunun qüdrəti təkcə onun texniki təchizatı ilə deyil, həm də şəxsi heyətin hazırlığı və sarsılmaz vətənpərvərliyi ilə ölçülür. Vətən müharibəsi zamanı nümayiş etdirilən rəşadət ordumuzun dünyada yeni nəsil müharibə aparan qüvvə kimi tanınmasına rəvac verdi. Bu gün hər bir hərbi hissədə keçirilən məşğələlər həmin şanlı qələbənin təcrübəsinə əsaslanır. Zabitlərimizin taktiki hazırlığı və əsgərlərimizin nizam-intizamı ordumuzun yenilməzliyinin əsas sütunlarını təşkil edir. Bu hazırlıq səviyyəsi sayəsində Azərbaycan Ordusu istənilən iqlim şəraitində və çətin relyefdə qarşıya qoyulan tapşırıqları saniyələr daxilində icra etmək iqtidarındadır.

Hərbi xidmətin ən mühüm elementlərindən biri olan atəş hazırlığı məşğələləri şəxsi heyətin silahlardan istifadə bacarığını təkmilləşdirir. Təlimin yüksək səviyyədə təşkili birbaşa onu idarə edən zabitin aldığı sistemli hərbi təhsildən asılıdır. Baş leytenant Ayhan Taleh oğlu Rəhimovun hərbi xidmət yolu hələ yeniyetmə yaşlarından, 2013-cü ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olması ilə başlayıb. 2013-2016-cı illər ərzində bu mötəbər təhsil ocağında hərbi nizam-intizamın və taktikanın ilkin əsaslarını mənimsəyən gənc kursant orta hərbi təhsilini uğurla başa vurduqdan sonra yoluna daha qətiyyətlə davam edib. 2016-cı ildə ölkəmizin nüfuzlu hərbi elm mərkəzi olan, indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olub. 2016-2020-ci illəri əhatə edən ali hərbi təhsil dövründə Ayhan Rəhimov müasir silahların quruluşu, onlardan istifadə qaydaları və bölmələrin atəşinin idarə olunması üzrə geniş nəzəri biliklərə yiyələnib.

Məhz bu ardıcıl hərbi təhsil dövrü - lisey və hərbi institut illəri gənc zabitə bu gün poliqonda əsgərləri qarşısında inamla dayanmaq və biliklərini bölüşmək imkanı verir. Onun rəhbərliyi ilə keçirilən atəş hazırlığı dərslərində əsgərlər silahı mexaniki şəkildə işlətməklə bərabər, hər bir atışın arxasında dayanan dəqiqliyi və taktiki prinsipləri dərk edirlər. Gənc zabit hər bir əsgərin silahla rəftarını, nişan alma anındakı duruşunu və nəfəs almanı idarə etməsini tək-tək yoxlayaraq, təhsil illərində qazandığı bilik və təcrübəni onlara ötürür.

Məşğələ zamanı hərbi qulluqçuların mövzu ilə bağlı fikirləri onların xidmətə olan bağlılığını bir daha sübut edir: "Müasir döyüşdə hədəfi ilk atəşlə məhv etmək hər bir hərbi qulluqçunun qarşısında duran başlıca vəzifədir, çünki düzgün nişan alınan hər bir güllə qələbəyə gedən yolun təməlidir", - deyə baş leytenant Ayhan Rəhimov bildirdi.

Əsgər Ələsgər Ələsgərli qeyd etdi: "Ali Baş Komandanın bizə yaratdığı şərait sayəsində bu gün poliqonlarda ən mürəkkəb atəş tapşırıqlarını yerinə yetirməkdən qürur duyuruq".

Məşğələdə özünü yaxşı tərəfdən göstərməyi bacaran əsgər Əli Əlibabayev əlavə etdi: "Atəş hazırlığı bizim üçün sadəcə bir məşğələ deyil, hər an düşmənə sarsıdıcı zərbə vurmağa hazır olmaq məsuliyyətidir".

Əslən Salyan rayonundan olan əsgər Mirsadıq Miriyev vurğuladı: "Zabitlərimizin verdiyi taktiki biliklər sayəsində silahın hər bir detalına bələd oluruq ki, bu da döyüş meydanında özümüzə inamı artırır".

Atəş hazırlığının iştirakçılarından əsgər İsmayıl Mürsəlov fikrini belə tamamladı: "Atəş hazırlığı döyüş qabiliyyətimizə müsbət təsir göstərir".

Bu cür praktiki məşğələlərin mütəmadi keçirilməsi ordunun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasının qarantıdır. Atəş hazırlığı poliqonlarında hədəf dəqiqliyi əsgərin hərbi vərdişlərinə rəvanlıq gətirir. Təlimlər zamanı qazanılan hər bir müsbət vərdiş gələcək əməliyyatların uğurla nəticələnməsi deməkdir. Müasir müharibə metodları göstərir ki, yalnız nəzəriyyəni praktika ilə birləşdirən hərbçilər çətin anlarda düzgün qərar qəbul edə bilirlər. Bu baxımdan, baş leytenant Ayhan Rəhimov kimi zabitlərin rəhbərliyi altında yetişən əsgərlər Azərbaycanın ərazi bütövlüyünün etibarlı sipəridir.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, Vətənə olan sonsuz sevgisi və praktiki vərdişləri ordumuzu yenilməz edən əsas amillərdir. Bu gün poliqonlarda tər tökən əsgər sabahın qəhrəmanıdır. Azərbaycan Ordusunun hər bir bölməsində müşahidə olunan yüksək ruh yüksəkliyi əminlik yaradır ki, sərhədlərimiz hər zaman toxunulmaz qalacaq. Müasir texnologiyalarla zənginləşən, milli ruhunu qoruyan bu ordu Azərbaycanın parlaq gələcəyinin və əbədi müstəqilliyinin ən böyük təminatçısıdır.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

*Milli Qəhrəmanlarımız*

# Vətən sevgisi ilə yazılan qəhrəmanlıq salnaməsi

Vətən anlayışı hər bir insan üçün müqəddəsdir. Bu torpaq təkcə üzərində yaşadığımız məkan deyil, həm də tariximizin, kimliyimizin, dilimizin və milli varlığımızın daşıyıcısıdır. Azərbaycan torpağı əsrlər boyu igid, mərd, qeyrətli oğullar yetişdirib. Bu oğullar çətin və sınaqlı günlərdə Vətənin müdafiəsinə qalxaraq onun azadlığı uğrunda canlarını fəda etməkdən çəkinməyiblər. Tarixin müxtəlif dövrlərində xalqımızın taleyini dəyişən, onun şərəf və ləyaqətini qoruyan belə qəhrəmanların adı yaddaşlara həkk olunub.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda aparılan mübarizə də məhz belə igid insanların sayəsində tarixə şanlı səhifələr yazıb. Qarabağ müharibəsi illərində Vətən uğrunda sinəsini sipər edən minlərlə igid oğul xalqımızın qəhrəmanlıq salnaməsini daha da zənginləşdirib. Onların bəziləri döyüş meydanlarında misilsiz igidlik göstərərək adlarını xalqın yaddaşına əbədi yazdırıblar. Bu igidlərdən biri də Azərbaycanın Milli Qəhrəmanı Elgiz Kərimovdur.

Onun qısa, lakin mənalı həyat yolu Vətən sevgisinin, cəsarətin və fədakarlığın ən parlaq nümunələrindən biridir. Elgiz Kərimov cəmi 21 il yaşasa da, bu illər ərzində göstərdiyi igidlik və mərdliklə Azərbaycan tarixində silinməz iz qoyub.

Elgiz Kərim oğlu Kərimov 5 yanvar 1971-ci ildə Azərbaycanın qədim və qəhrəmanlıq ənənələri ilə tanınan Bərdə rayonunda dünyaya göz açıb. Bərdə tarix boyu igid oğulları ilə tanınıb və Elgiz də məhz belə bir mühitdə böyüyüb boya-başa çatıb.

Onun uşaqlıq illəri doğma rayonun sadə və səmimi həyatının içində keçib.

Elgizin tərbiyəsində ailəsinin və doğulduğu mühitin rolu böyük olub. Onun ailəsində Vətənə sevgi, torpağa bağlılıq kimi dəyərlər xüsusi yer tutub. Bu dəyərlər onun xarakterinin formalaşmasına güclü təsir göstərib. Gənc yaşlarından Vətənə xidmət etməyi şərəfli bir borc hesab edib.

1987-ci ildə orta təhsilini başa vuran Elgiz artıq həyatının yeni mərhələsinə qədəm qoymuşdu. O dövrdə hər bir gənc kimi o da Vətənə xidmət etməyin məsuliyyətini dərk edirdi və bu məsuliyyət onun gələcək həyat yolunu müəyyənləşdirəcəkdi.

1987-ci ildə Elgiz Kərimov hərbi xidmətə çağırılıb. Ordu həyatı onun xarakterinin daha da möhkəmlənməsində mühüm rol oynayıb. Şübhəsiz ki, hərbi xidmət yalnız fiziki hazırlıq deyil, həm də iradə, məsuliyyət və nizam-intizam məktəbidir.

Elgiz hərbi xidmət illərində intizamlı, çevik və cəsarətli bir əsgər kimi tanınıb. O, verilən tapşırıqları dəqiq yerinə yetirir, komandirlərin etimadını qazanırdı. Hərbi xidmət dövründə qazandığı təcrübə sonradan Vətənin müdafiəsi uğrunda apardığı döyüşlərdə onun üçün çox mühüm olub.

Hərbi xidmətini layiqincə başa vurduqdan sonra Elgiz doğma Bərdəyə qayıdıb. Lakin onun qəlbində hərb həyatı və Vətənə xidmət hissi artıq dərin kök salmışdı.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti ölkəmiz üçün ağır və faciəli günlər gətirdi. Qarabağ torpaqlarında başlayan silahlı münaqişə Azərbaycanın minlərlə vətəndaşını silaha sarılmağa məcbur etdi.

Bu dövr Azərbaycan xalqının tarixində ən çətin və sınaqlı illərdən biri idi. Düşmən hü-



cumları nəticəsində kəndlər dağıdılır, günahsız insanlar öz doğma yurdlarından didərgin düşürdülər. Bu hadisələr hər bir vətənpərvər azərbaycanlının qəlbini ağrıdırdı.

Elgiz Kərimov da baş verən hadisələrə biganə qala bilməzdi. O, Vətənin taleyinin təhlükə altında olduğunu anlayırdı. Bu səbəbdən 1991-ci ildə könüllü olaraq yaradılmış özünümüdafiə taborlarından birinə yazıldı.

Bu qərar onun Vətənə olan sonsuz sevgisinin və məsuliyyət hissinin bariz göstəricisi idi. O, bilirdi ki, qarşıda çətin və təhlükəli yol var. Lakin Elgiz üçün ən vacib olan Vətən torpağının müdafiəsi idi.

Elgiz Kərimov qısa müddətdə döyüş yoldaşları arasında cəsarəti və mərdliyi ilə seçilməyə başladı. O, döyüşlərdə həmişə ön sıralarda olur, ən təhlükəli tapşırıqları yerinə yetirməkdən çəkinmirdi.

Xüsusilə Əsgəran yaxınlığında gedən şiddətli döyüşlərdə göstərdiyi igidlik ona böyük hörmət qazandırdı. Həmin döyüşlər zamanı Elgiz düşmənin bir neçə silahlı dəstəsini məhv edərək Azərbaycan döyüşçülərinin irəliləməsinə imkan yaratdı.

Döyüş yoldaşları onu qorxmaz və qətiyyətli bir döyüşçü kimi tanıyırdılar. O, hər zaman silahdaşlarının təhlükəsizliyini düşünür, çətin anlarda onları ruhlandırırdı.

Elgiz üçün döyüş yalnız hərbi vəzifə deyildi. Bu, onun üçün Vətənə olan sevgisini sübut etməyin bir yolu idi. O, bilirdi ki, torpaqların müdafiəsi yalnız silah gücü ilə deyil, həm də iradə və inamla mümkün olur.

1992-ci il martın 12-də Elgiz Kərimov növbəti dəfə misilsiz igidlik göstərdi. Xocalı rayonunun Naxçıvanlı kəndi yaxınlığında döyüşən Azərbaycan döyüşçüləri düşmən tərəfindən mühasirəyə alınmışdı.

Bu vəziyyət son dərəcə təhlükəli idi. Mühasirədə qalan döyüşçülərin həyatını xilas etmək üçün dərhal köməyə ehtiyac var idi. Elgiz və silahdaşları tərəddüd etmədən bu təhlükəli vəzifəni üzərlərinə götürdülər.

Təxminən bir saata yaxın davam edən ağır və qanlı döyüş başladı. Döyüş zamanı Elgiz böyük şücaət göstərdi. O, düşmən mövqelərinə hücum edərək mühasirənin yarılmasına nail oldu. Nəticədə Azərbaycan döyüşçüləri xilas edildi.

Lakin bu şərəfli döyüş Azərbaycan xalqı üçün böyük itki ilə nəticələndi. Döyüş zamanı cəmi 21 yaşlı Elgiz Kərimov düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid oldu.

Onun ölümü silahdaşlarını dərindən sarsıtsa da, göstərdiyi igidlik hər kəs üçün nümunəyə çevrildi.

Elgiz Kərimovun göstərdiyi igidlik dövlət tərəfindən də yüksək qiymətləndirildi.

Belə ki, Kərimov Elgiz Kərim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü.

Təbii ki, bu ali ad yalnız ən böyük şücaət göstərmiş insanlara verilir. Elgiz Kərimov da öz qəhrəmanlığı ilə bu ada layiq olduğunu sübut etmişdi.

Milli Qəhrəman Elgiz Kərimov doğulduğu Bərdə rayonunda dəfn olunub. Onun məzarı bu gün də ziyarət olunur, adı böyük hörmət və ehtiramla çəkilir.

Qəhrəmanın həyat yolu gənc nəslə vətənpərvərlik, mərdlik və fədakarlıq nümunəsi kimi təqdim edilir. Onun göstərdiyi igidlik Azərbaycan gənclərinə Vətənə bağlılığın nə demək olduğunu xatırladır.

Bu gün müstəqil Azərbaycanın güclü ordusu və qalib xalqı var. Qarabağ torpaqları azad edilib və üçrəngli bayrağımız azad səmalarda dalğalanır. Bu qələbənin təməlində isə Elgiz Kərimov kimi qəhrəmanların ruhu və fədakarlığı dayanır.

Elgiz Kərimov cəmi 21 illik ömür yaşasa da, bu qısa ömürdə əbədiyaşar bir qəhrəmanlıq salnaməsi yazdı. Onun həyatı göstərdi ki, Vətən sevgisi sözlə deyil, əməl və fədakarlıqla ölçülür.

Bu gün Azərbaycanın azad səmasında dalğalanan üçrəngli bayrağımız minlərlə şəhidin, qəhrəmanın qanı və ruhu hesabına ucalır. Elgiz Kərimov da həmin qəhrəmanlardan biridir.

Onun adı Azərbaycan tarixində igidlik, cəsarət və vətənpərvərlik rəmzi kimi yaşayır və yaşayacaq. Çünki Vətən uğrunda canından keçən qəhrəmanlar heç vaxt unudulmurlar. Onlar xalqın yaddaşında, tarixində və gələcək nəsillərin qəlbində əbədi yaşayırlar.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

# Fədakarlığın ən ali ifadəsi

Çünki bu gün azad səma altında yaşamağımız, bayrağımızın qürurla dalğalanması onların qəhrəmanlığının nəticəsidir. Şəhidlər Vətənimizin azadlığı uğrunda öz həyatlarını qurban verərək tariximizin ən şərəfli səhifələrini yazıblar.

"N" hərbi hissəsinin ərazisində şəhidlərimizin xatirəsinə Şəhidlər bulağı ucaldılıb.

Kiçik çavuş Bayram İsayev bildirdi ki, əsrlərdir xalqımız bir çox tarixi günlərə şahidlik edib, ağrılı-acılı dönəmlərlə yanaşı, qürurverici və sevincli anlar yaşayıb. "Lakin Vətən müharibəsində qazanılan şanlı Qələbə zəngin tariximizin ən parlaq səhifəsi, hər zaman fəxr edəcəyimiz və iftixar duyacağımız qəhrəmanlıq salnaməmizdir.

44 günlük Vətən müharibəsi zamanı döyüş meydanında çox şey gördük. O günlər bizə bir həqiqəti daha dərindən anlatdı: Vətən sevgisi sadəcə söz deyil, lazım gəldikdə canını belə əsirgəməməkdir. O döyüşlərdə hər bir əsgər bir amal uğrunda vuruşurdu - torpağımızın azadlığı uğrunda.

Döyüş meydanında şəhidlik anlayışı insana tamam başqa cür görünür. Orada hər kəs anlayır ki, bu torpaq uğrunda




verilən hər can Vətənin gələcəyinə yazılan bir tarixdir. Əsgərlərimizin necə böyük iradə ilə döyüşdüyü məlum həqiqətdir. Döyüşçülər arasında elə bir ruh yüksəkliyi vardı ki, heç kim geri çəkilməyi düşünmürdü. Onların gözündə qorxu yox idi, yalnız qələbəyə və Vətənə bağlılıq vardı. Hamı bir amal uğrunda bir yumruq kimi birləşmişdi".

Kiçik çavuş qeyd etdi ki, bu müharibədə mənim üçün ən ağır itkilərdən biri yaxın qohumum Asif Rəhimovun Talış istiqamətində şəhadətə ucalması oldu. "Onun Vətən sevgisi bir ümman idi. Asif hər zaman deyirdi ki, müqəddəs torpaqlarımız uğrunda döyüşmək ən böyük şərəfdir. O da həmin şərəfi öz canı ilə təsdiqlədi və şəhidlik zirvəsinə yüksəldi.

Düşünürəm ki, şəhidlər bu gün azad nəfəs aldığımız torpağın əbədi keşikçiləridir. Onların qanı ilə suvarılan torpaq artıq bizim üçün təkcə Vətən deyil, həm də müqəddəs əmanətdir".

Şəhidlər Vətən uğrunda canından keçən, xalqın azadlığı və torpağın bütövlüyü naminə ən böyük fədakarlığı göstərən qəhrəmanlardırlar, - əsgər Zaur Məmmədzadə dedi. - Onlar ömürlərinin ən gözəl çağında, arzularının, planlarının yarım qaldığı bir anda Vətəni öz canlarından üstün tutaraq şəhidlik zirvəsinə ucalıblar. Bu zirvə hər kəsə nəsib olmayan, uca və şərəfli məqamdır.

Əsgər Tahir Əhmədov bildirdi ki, onların qəhrəmanlığı gələcək nəsillər üçün örnəkdir. "Şəhidlər Vətən sevgisini sözlə deyil, əməllə sübut etdilər. Bu gün azad və müstəqil Azərbaycanda yaşaya biliriksə, bu, məhz onların göstərdiyi şücaətin nəticəsidir. Hər bir gənc şəhidlərin həyat yolundan güc almalı, Vətənə sevgi və sədaqətlə xidmət etməyi özünə borc bilməlidir".

Söhbətə qoşulan əsgər Tural Rəhimov vurğuladı ki, şəhidlər ölmürlər. "Onlar torpağın yaddaşında, bayrağın dalğasında, azad səmanın altında yaşayırlar. Vətən uğrunda can verənlər heç vaxt unudulmurlar, çünki onların adı yalnız tarixə deyil, həm də xalqın ürəyinə yazılıb. Şəhidlik zirvəsi isə hər zaman qəhrəmanlığın və əbədiyyətin rəmzi olaraq qalır".

Gənclər arasında sərbəst güləş üzrə respublika çempionu olan əsgər Fərid Mirzəyev dedi: - Şəhidlər bizim qürurumuzdur. Onlar bizə öyrətdilər ki, Vətəni qorumaq sadəcə borc deyil, həm də böyük şərəfdir. Hər dəfə bayrağa baxanda onların fədakarlığını xatırlayıram. Respublikamızda şəhidlərimizin xatirəsi daim uca tutulur. Onların adları küçələrə, məktəblərə verilir, xatirələri anım tədbirləri ilə yad edilir. Lakin ən böyük ehtiram onların uğrunda can verdiyi Vətəni qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə güclü şəkildə ötürməkdir.

Şəhid olmaq Vətənə olan sevginin, sədaqətin və fədakarlığın ən ali ifadəsidir. Bizlər daim onların xatirəsini yaşatmalı, uğrunda can verdikləri Vətəni qorumalıyıq. Çünki şəhidlər ölmürlər - onlar xalqın yaddaşında, azad torpağın nəfəsində və dalğalanan bayrağın kölgəsində əbədi yaşayırlar.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Məqsədləri silahlı sıra vərdişlərini mənimsəməkdir

Səhərdir. Hərbi hissənin sıra meydanında canlanmadır. Manqalara bölünən əsgərlər əvvəlcə silahla sıra duruşunu, daha sonra isə silahı qayışda tutmaq qaydasını təkrarlayırdılar. Manqa komandirləri əsgərlərə silahı qayışda şux dayanmanın incəliklərini izah edirdilər. Onlar da öz növbəsində komandirin verdiyi əmri düzgün icra etməyə çalışırdılar. Baş leytenant Fərdi Fərzəliyev bölmənin necə sıra hazırlığı məşqlərinin keçdiyinə nəzarət edirdi. Manqa sıra məşqini düzgün yerinə yetirmədikdə dərhal həmin manqaya yaxınlaşaraq doğru, düzgün qaydanı izah edirdi.

Baş leytenant Fərdi Fərzəliyev peşəkar hərbçidir. O, Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyi, daha sonra isə indiki Heydər Əliyev adına Hərbi İnstitutu "Motoatıcı" ixtisası üzrə bitirib. Zamanında hərbi təhsil aldığı illərdə qazandığı bilik və bacarıqlardan faydalanır. Əsgərlərin silahla sıra hərəkətlərini düzgün yerinə yetirib yetirməməsinə göz qoyur. Fərdi dedi ki, manqa komandirləri də sıra hazırlığında mükəmməl bilik və bacarıqlara yiyələniblər. Onlar şəxsi heyətə sıra məşqlərini ustalıqla aşılayırlar. Əsgərlər öyrədilən hər bir biliyi dərindən mənimsəməyə çalışırlar. Bu səbəbdən də onlar praktiki vərdişləri tez mənimsəyirlər.

Bacarıqlı manqa komandirlərinə gəlincə, zabit dedi ki, hər biri xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlir. Onları biri-birindən ayırmaq istəmirəm.

Yaxında məşq keçən manqa komandiri ilə həmsöhbət olduq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Allahverdi Mehdiyev təbeliyində olan əsgərlərə silahla sıra hərəkətlərini tam incəliklə izah edirdi. Əsgərlər silahı qayışda vəziyyətindən "silahı yerə qoy!" komandasını bir neçə hərəkətlə yerinə yetirirdi. Əvvəlcə nümunə olaraq



bir nəfər hərbi qulluqçunu sıranın önünə çıxardıb komandanın hər bir elementini incəliyə-incəliyə izah edərək necə yerinə yetirməsini göstərirdi. Daha sonra isə əsgərlər verilən komandanı düzgün icra etməyə çalışırdılar.

Silahla sıra hərəkətlərini daha tez mənimsəyib yerinə yetirən əsgərlərə gəlincə, dərs rəhbəri dedi ki, Tuncay Şükürov, Emil Həsənov, Namiq Məhərrəmov, Eşqin Abbaslı, Nicat Mustafayev, Elgün Ədilov, Fərid Şərifov, Səid Eyvazov və Kamran Məmmədov daha yaxşı fərqlənənlərdirlər. Əsgərlər müxtəlif vaxtlarda hərbi xidmətə çağırılsalar da, onlar hərbi biliklərini eyni qaydada mənimsədikləri üçün hansının az, hansının çox xidmət etdiyini ayırmaq olmurdu. Çünki əsgərlər sıra hazırlığı zamanı biri digərindən seçilmirdi.



Əsgər Tuncay Şükürovun hərbi xidmətini başa vurmasına az qalıb. O, xidmət etdiyi dövr ərzində komandirlərinin öyrətdiklərinə dərindən yiyələnib. Məqsədi də, məramı da nümunəvi xidmət etmək olub. Nümunəvi xidmətin də yolunu hərbi bilikləri istər nəzəri, istərsə də praktiki olsun, yetərincə mənimsəmək və komandirlərin əmrlərini vaxtında, düzgün icra etməkdə görür.

Əsgər Namiq Məhərrəmov Goranboy rayonundan hərbi xidmətə çağırılıb. Əsgər düşünür ki, silahla sıra hərəkətlərinin də öyrənilməsi hər bir hərbi qulluqçu üçün gərəklidir. Silahsız sıra hərəkətləri ilə yanaşı, hərbi qulluqçular silahla da sıra hərəkətlərini yerinə yetirməyi bacarmalıdırlar.

Vətənimizin müxtəlif bölgələrindən olan əsgərlərin məqsədi, məramı komandirlərin öyrətdiklərini dərindən mənimsəmək və yeri gəldikcə hərbi biliklərdən məharətlə yararlanmaqdır. Növbəti məşğələ yerindən onlara uğurlar diləyi ilə ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



*Medallı igidlərimiz*

# Vətənə sədaqətin səssiz hekayəsi

Bəzən tarix yalnız böyük hadisələrdən ibarət olmur. Tarixi yaradan həm də səngərlərdə, hərbi hissələrdə, təlim meydanlarında səssiz və yorulmadan xidmət edən insanlardır. Onların gündəlik fəaliyyəti bəzən diqqətdən kənarda qalsa da, dövlətin təhlükəsizliyinin möhkəm təməli məhz bu zəhmətin üzərində qurulur. Vətənə xidmət edən hər bir hərbi qulluqçunun həyat yolu isə sadəcə xidmət illərinin statistikası deyil, həm də məsuliyyət, sədaqət və peşəkarlıqla yoğrulmuş bir ömür yoludur.

Azərbaycan Ordusunun sıralarında uzun illər xidmət edən gizir Ramal Novruz oğlu Sadıqov da məhz belə hərbi qulluqçulardandır. 1990-cı ilin 23 iyununda Masallı rayonunun Qədirli kəndində dünyaya gələn Ramal Sadıqov gənc yaşlarından Vətənə xidmət etməyi həyatının əsas istiqamətlərindən biri kimi seçib. Bu seçim təsadüfi deyildi. Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə çalışan bir dövrdə böyüyən gənclər üçün ordu sıralarında xidmət etmək təkcə peşə deyil, həm də vətəndaş məsuliyyətinin ifadəsi idi.

Masallının Qədirli kəndi Azərbaycanın cənub bölgəsinin zəhmətkeş insanları ilə tanınan yaşayış məntəqələrindən biridir. Bu kənddə böyüyən Ramal Sadıqov da uşaqlıqdan əməksevərlik, nizam-intizam və məsuliyyət kimi keyfiyyətləri ailədən mənimsəyib. Kənd həyatının sadəliyi və zəhmətə əsaslanan gündəlik ritmi onun xarakterinin formalaşmasına təsir göstərib, sonralar hərbi xidmətində də bu keyfiyyətlər özünü aydın şəkildə büruzə verib.

Ramal Sadıqov artıq 15 ildir ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir. Bu müddət ərzində o, hərbi kollektivdə formalaşaraq təcrübə qazanıb, müxtəlif xidmət mərhələlərindən keçib. Uzun illər davam edən hərbi xidmət təkcə fiziki dözümlülük deyil, həm də yüksək intizam, məsuliyyət və kollektiv ruhu tələb edir. Hərbi qulluqçu üçün gündəlik xidmət tapşırıqları bəzən adi görünə bilər, lakin həmin tapşırıqların ardıcıl və dəqiq yerinə yetirilməsi ordunun ümumi döyüş qabiliyyətinin qorunmasında mühüm rol oynayır.

Gizir Ramal Sadıqov da xidmət illəri boyunca bu prinsiplərə sadiq qalaraq, öz vəzifə borcunu yerinə yetirib. Hərbi kollektivdə uzun müddət xidmət edən gizirlər adətən həm zabitlər, həm də əsgərlər arasında körpü rolunu oynayırlar. Onların təcrübəsi və gündəlik xidmət prosesində qazandıqları biliklər gənc hərbi qulluqçuların formalaşmasında mühüm əhəmiyyət daşıyır.

Heç şübhəsiz, 2020-ci ilin payızında baş verən Vətən müharibəsi Azərbaycanın müasir tarixində mühüm dönüş nöqtəsi oldu. Uzun illər davam edən işğala son qoymaq məqsədilə Azərbaycan Ordusu genişmiqyaslı hərbi əməliyyatlara başladı. Bu dövrdə minlərlə hərbi qulluq-



çu kimi gizir Ramal Sadıqov da döyüş əməliyyatlarında iştirak etdi.

Təbii ki, müharibə yalnız döyüş meydanında baş verən hadisələrlə məhdudlaşmır. Hər bir bölmənin fəaliyyəti, koordinasiya, hərbi intizam və qarşılıqlı dəstək kimi göstəriciləri ümumi uğurun vacib tərkib hissəsi idi. Ramal Sadıqov da bu mürəkkəb prosesin bir iştirakçısı olaraq üzərinə düşən tapşırıqları yerinə yetirirdi.

Onun xidmət yolu xüsusilə Suqovuşan və Kəlbəcər istiqamətində aparılan əməliyyatlarla bağlıdır. Bu ərazilər strateji əhəmiyyətə malik bölgələr olduğuna görə, burada aparılan hərbi əməliyyatlar böyük diqqət və məsuliyyət tələb edirdi. Döyüş əməliyyatlarının gərginliyi, dağlıq relyef və dəyişkən hava şəraiti hərbi qulluqçulardan həm fiziki, həm də psixoloji dözümlülük tələb edirdi.

Vətən müharibəsindən sonra da regionda təhlükəsizliyin tam təmin olunması üçün müəyyən əməliyyatlar həyata keçirildi. Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi antiterror əməliyyatı bu prosesin mühüm mərhələlərindəndir. Gizir Ramal Sadıqov həmin əməliyyatların da iştirakçılarından biri olub.

Bu cür əməliyyatlar müharibədən fərqli olsa da, eyni dərəcədə diqqət və hazırlıq tələb edir. Çünki hərbi qulluqçular həm təhlükəsizlik tədbirlərini təmin etməli, həm də regionda sabitliyin bərqərar olunmasına töhfə verməlidirlər.

Hərbi qulluqçuların xidmətinə verilən qiymət onların təltifləri ilə də ifadə olunur. Gizir Ramal Sadıqov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Kəlbəcərin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

Bu medallar yalnız təltif deyil. Onlar, eyni zamanda, müəyyən bir dövrün, bir mübarizənin və həmin mübarizədə iştirak etmiş insanların xidmətinin simvolu kimi qiymətləndirilir. Hər medal arxasında müəyyən bir əməyin, məsuliyyətin və xidmət illərinin izləri dayanır.

Ordu sıralarında uzun müddət xidmət edən hərbi qulluqçuların həyatı çox vaxt sadə və görünməz bir ritmlə davam edir. Təlimlər, xidmət növbələri, gündəlik hazırlıq prosesi və kollektiv həyat - bütün bunlar hərbi xidmətin ayrılmaz tərkib hissəsidir. Bu proseslər bəzən kənardan adi görünsə də, ordunun peşəkarlığının və hazırlığının əsasını təşkil edir.

Gizir Ramal Sadıqovun 15 illik xidmət yolu da məhz bu ardıcıllığın nümunəsidir. Onun fəaliyyəti böyük şüarlar və təmtəraqlı ifadələrdən çox, gündəlik və məsuliyyətli xidmətin nümunəsi kimi xarakterizə oluna bilər.

Vətənə xidmət müxtəlif formalarda təzahür edir. Kimisi elmdə, kimisi təhsildə, kimisi isə hərbi xidmətdə bu məsuliyyəti daşıyır. Hərbi qulluqçuların həyat yolu isə çox vaxt səssiz olsa da, Vətənin toxunulmazlığının təmin olunmasında onların rolu danılmazdır.

Masallının Qədirli kəndindən çıxaraq Azərbaycan Ordusunda uzun illər xidmət edən gizir Ramal Sadıqovun həyat yolu da bu baxımdan diqqətəlayiqdir. Onun xidmət illəri Azərbaycan Ordusunun keçdiyi mühüm tarixi mərhələlərlə üst-üstə düşür. Müharibə və sonrakı dövrdə keçirilən əməliyyatlarda iştirakı, eləcə də uzun illər davam edən xidmət fəaliyyəti onun həyat yolunun əsas məqamlarını təşkil edir.

Bu cür hərbi qulluqçuların fəaliyyəti bir daha göstərir ki, dövlətin təhlükəsizliyi həm böyük qərarlarla, həm də sədaqətlə yerinə yetirilən gündəlik xidmətlə təmin olunur. Və həmin xidmətin arxasında illərin zəhməti, məsuliyyəti və Vətənə bağlılıq dayanır.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətənə xidmət ucalıqdır



*Əsgər Məhəmməd Rasim oğlu Tağızadənin orta məktəbi bitirəndən sonra ən böyük arzusu Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirmək olub. Doğulduğu Sumqayıt şəhərində tam orta məktəbdə oxuduğu illərdə özünü nümunəvi, intizamlı, cəsur şagird kimi yoldaşları arasında tanıdıb. Məhəmməd gələcəkdə özünü aşpaz peşəsində görmək istəyib. Bunun üçün ondakı xüsusi bacarıqları, bu peşəyə həvəsini evdə valideynləri də hiss edib. İstəyinə, arzusuna qarşı çıxmayan doğmaları ona "Aşpaz" hazırlıq kursunda oxumasına dəstək olublar. Məhəmməd kursu müvəffəqiyyətlə başa vurub "Aşpaz" dərəcəsini alıb.*

Əsgər Məhəmməd Tağızadə bir neçə aydır ki, arzusunda olduğu hərbi xidmətdədir. İlk gündən də qarşısına məqsəd qoyub ki, Vətənə vicdanla, namusla xidmət etsin.

Məhəmmədin gənc əsgər olan dövrü arxada qalıb. Düşməndən azad edilmiş ərazilərimizdə, Qarabağ iqtisadi rayonunda xidmət etməkdən qürur duyur. Qarabağın dağları, meşələri, dərətəpələri onun hər səhər gözünü açanda ilk gördüyü mənzərələrdir. Təbiəti seyr etdikcə hərdən xəyala da dalır. Özü-özünə deyir ki, otuz ilə yaxın bu əsrarəngiz təbiəti ermənilər işğal altında saxlayıblar. Xalqımızın mərd, qəhrəman oğulları düşmənə qarşı bu ərazilərdə ağır döyüşlər aparıblar. İkinci Qarabağ müharibəsi gedəndə Məhəmməd orta məktəbdə oxuyurdu. Xocavənd, Hadrut, Cəbrayıl, Füzuli və başqa rayonların azad edilməsi uğrunda qanlı döyüşlərin getdiyini o zaman eşidib. Bu yerləri görməmişdi, amma ən böyük arzularından biri idi buranı görmək.

Əsgər Məhəmməd Tağızadə işğaldan azad edilmiş ərazilərin hələ də təhlükəli olduğu üçün ehtiyat edir. Düşmənin basdırdığı minalardan ərazilər tam təmizlənməyib. Təlimlərdə, çöl məşğələlərində həmin ərazilərə daxil ola bilmədiklərinə görə heyifsilənir.

Məhəmməd tank əleyhinə bölmədə xidmət edir. Daşınan tank əleyhinə raket qurğusunun heyət üzvüdür. Ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilir. Komandirlərin keçdiyi dərsləri, praktiki məşğələləri dərindən mənimsəyib. Döyüş atışlı təlimlərdə də iştirak edib. Tank əleyhinə raket qurğusundan verilmiş hədəfə mərmi də atıb. O, heyətlə birgə keçirdiyi döyüş atışını uğurla həyata keçirib.

Hərbi xidmət Məhəmməd üçün kişilik, mərdlik məktəbidir. Bu məktəbin şərəfli, şanlı məzunu olmaq onun başlıca məqsədidir. Məqsədinə nail olmaq üçün o, komandirlərin verdiyi əmr və göstərişləri vaxtında, dəqiq yerinə yetirməklə mümkün olacağını düşünür. Əsgər yoldaşları arasında nüfuz, hörmət qazanmağın da yolu xoş ünsiyyət, mehriban davranış və bir-birinə arxa, dayaq olmaqda görür.

Qarşıda Məhəmmədin bir illik hərbi xidməti dayanır. O, bu dövrü də bacarıqla, komandirlərin və əsgər yoldaşlarının hörmətini qazanmaqla başa vuracağına əmindir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Dörd temperament - bir ordu: psixoloji balansın əhəmiyyəti

**(Əvvəli 1-ci səhifədə)**

Aparılan araşdırmalar göstərir ki, yüksək məsuliyyət tələb edən, özündən başqa digər insanların məsuliyyətini daşıyan peşə sahiblərinin özünəməxsus xüsusiyyətləri var. Bu xüsusiyyətlərə fədakarlıq, özünəinam, həyatsevərlik, başqalarına qarşı məsuliyyət və insansevərlik kimi digər müsbət hisslər daxildir.

Hərbçi olaraq ixtisaslar və peşədaxili istiqamətlər necə təyin edilməlidir? Biz temperament tiplərini açıqlayaraq mövzuya giriş vermişdik. Hər bir temperamentin özünəməxsus xüsusiyyətlərini qısa olaraq bildirdik. Gəlin burada fikrimizi bir az da genişləndirək. Fərdi-psixoloji xüsusiyyət olan temperament hisslərin nisbətidir. Bir insanda dörd temperament tipinin dördü də mövcuddur. Lakin nisbət fərqi ilə biri özünü daha qabarıq göstərir. Həmin irəli çıxan tip şəxsin əsas xüsusiyyətlərini ifadə edir. Hərbi psixologiyada zabit və əsgər heyəti üçün peşə psixoloji seçim sahəsi nəzərdə tutulub. Həmin sahə hərbçilərin fərdi-psixoloji xüsusiyyətlərini öyrənərək, onların gələcəkdə hansı ixtisas üzrə daha faydalı olacağını müəyyən etməkdə yardımçı olur.

Sanqviniklər - pozitiv, motivasiyalı, təsir qabiliyyətli, komanda ruhlu insanlardır.

Pozitiv və motivasiyaedici qabiliyyətlər onlarda gərgin anlarda ortalığı yumşaltmağa kömək edir. Komanda ruhlu və təsir qabiliyyətli olmaları qrup halında fəaliyyətləri yerinə yetirərkən ətrafda olan insanlara daima enerji bəxş edir. Daxilən şən əhvali-ruhiyyəni yanındakılara asanlıqla ötürə bilən. Maraq sahələri geniş, lakin qeyri-sabitdir. Diqqətcildirlər, "gözündən heç nə qaçmır" deyimi yerini düşər. Bununla yanaşı, diqqətin yayınması, bir neçə şeyə diqqətini paylamaq texnikası onlarda yaxşı alınır. Uzun müddət fokuslanmaq, bir işi sona çatdırmadan bitirmək kimi özlərinin də xoşlarına gəlməyən adətə sahibdirlər. Çox təəssüflənmək, ah-vay etmək onlara görə deyil. Uzun müddətli fokuslanma, dəqiqlik tələb edən, oturaq, təklikdə görüləcək işlər sanqviniklərdən uzaqdır. Hərbçi peşəsində təlim-tərbiyə, informasiya, hərəkətlilik və ünsiyyət tələb edən ixtisaslara cəlb edilməsi məqsədəuyğundur. Onlar adətən 1-ci şəxs olmaq istəmirlər. Orduda peşə-psixoloji seçimi həyata keçirərkən komandir müavinləri, ictimaiyyətlə əlaqələr, təlim-tədris, eləcə də təyyarəçilik sahələrinə yönləndirilmələri daha effektiv nəticələrə yol açacaqdır. Çünki sözügedən temperament tiplərinin enerjili olmaları ilə yanaşı, bioloji olaraq nitq qabiliyyəti yaxşı inkişaf etmişdir. İstənilən qrupda bir sanqvinik hərbçinin olması bəs edir ki, kollektivin əhvali-ruhiyyəsini yüksək həddə saxlasın.

Melanxoliklər - sanqviniklərlə əks qütblüdür desək, yanılmarıq. Onlar yaradıcı təfəkkürlü olub dərin düşüncəyə sahib insanlardır. İşlərinə vicdanlı və məsuliyyətli yanaşırlar. Hərbi həyatın monotonluğu və rəngsizliyindən sıxılacaq ən sonuncu tiplərdir. İntrovert və depressivdirlər. Passiv görünür, səssiz, dəqiq və məsuliyyətlidirlər. Utancaq olduğuna görə yoldaşlarıdan geri qalır. Bəzən o qədər səssiz və astagəl olurlar ki, varlıqları belə "yaddan çıxır". Bütün bunlarla yanaşı, rəqəmsal zəkaları yaxşı inkişaf edib. Az ünsiyyətə meyilli olub, münasibəti olan insanlara qarşı fədakar yanaşırlar. Neyrofizioloji xüsusiyyətlərini nəzərə almaqla hərbi peşədə məsuliyyəti daha dərin, rabitə və avtomatlaşdırılmış idarəetmə sistemləri (AİS), radioelektron mübarizəkəşfiyyat (REMREK), eləcə də kompüter dəstəkli, oturaq fəaliyyətə sahib (Pilotsuz uçuş aparatları - PUA, dronlar) vəzifələrdə faydalılığı daha yüksək ola bilər. Tabeliyində olanlara qarşı həssas yanaşırlar. Kiçik işlərdə belə yüksək motivasiyaya ehtiyac duyurlar. Onlara mənəvi kömək etməklə ürəkləndirmək lazımdır.

Mövcud qrupda melanxolik hərbçi varsa, daim heyətin qayğısına qalacaqdır.



Xoleriklər - onlar lider ruhludurlar. Çəkinmədən qərar qəbul edir, enerjili, zirək tiplərdir. Komandir olmağa, avtoritar idarəetməyə meyilli şəxslərdir. Bəzən səbirsizlik göstərir, tənqidə qarşı aqressiv olurlar. Böhran vəziyyətlərində kimdənsə məsləhət gözləmir, özləri çıxış yolu axtarırlar. Hegemonluğa sahib olub, kənar qıcıqlara qarşı sərt reaksiyalar verə bilirlər. İşlərinə qarışmaq onlarda qəzəb partlaması yarada bilər. Bu da böhran hallarında onlarda tez özündənçıxma, konfiliktə təhrik etməyə imkan yaradır. Tapşırığı yerinə yetirməzdən əvvəl bu tipə sahib hərbi qulluqçular tez həyəcanlanırlar. Yeni mühitə uyğunlaşmaq onlar üçün çox da çətin deyil.

Hərbçi peşəsində daha çox dağatıcı, motoatıcı birliklərdə, xüsusi taktiki əməliyyat bölmələrində, eləcə də hava desantı qruplarında yüksək fəallıq göstərirlər. Hərbi kollektivdə olan xolerik yoldaşlarını çətin şəraitdə irəliyə doğru aparacaq.

Fleqmatiklər - soyuqqanlı, nizamnamə qanunları ilə hərəkət edən, həmçinin sistemli iş qabiliyyətinə sahib tiplərdir. Hisslərinə nəzarət etməyi bacarır. Bəzən daxildə dərin emosional mübarizə aparsa da, üzdə sakit görünür. Qeyri- təşəbbüskardır - ehtiyac olmadığı halda innovativ çıxışlar etmirlər. Gördüyü işə fokuslanır. Olur ki, böhran vəziyyətlərində qərar qəbul etmək üçün əmr gözləyir. Qaydalar onlara görə yazılıb desək, yanılmarıq. Nizamnamə tələbləri, günün nizam qaydalarına əməl etmək onlarda yaxşı alınır. Analiz etmək, məxfi məlumatlarla işləmək, planlama və qərargah vəzifələrində uğurludurlar. Uzun müddət bir işə diqqət ayıra bilərlər. Lakin bir işdən digərinə keçid onlarda çətin alınır. İnadlı və əməksevərdirlər. İşini sona çatdırır. Boş danışıqları sevmir, ciddi və ağıllıdırlar. Soyuqqanlı olmaları onlarda tibb sahəsində çalışmağa imkan yaradır. Bölük sanitarları, feldşerlər, məntəqələrin tibb heyətinə daxil edilə bilərlər.

Hərbçi peşəsində ixtisasların təyin edilməsinə temperament pəncərəsindən baxmaqla yanaşı, onun xarakterik xüsusiyyətlərinə də nəzər yetirməliyik. Çünki şəxsiyyətin xarakteri fəaliyyət və ünsiyyət prosesi ilə formalaşır. Xarakter şəxsin keyfiyyəti kimi temperamentlə sıx əlaqəlidir. Temperament bioloji xüsusiyyətdirsə, xarakter sosial mühitin, tərbiyənin tələblərinə uyğun formalaşan və dəyişikliklərə uğraya bilən psixoloji xassələrdir.

Hərbçi xarakterinin strukturuna mənəvi-əxlaqi keyfiyyətlər daxildir. Buraya komanda ruhlu, vətənpərvər, dürüst, cəsur, ciddi, yüksək fiziki və psixi hazırlıqlı, eləcə də digər müsbət xüsusiyyətləri əlavə edə bilərik. İradi keyfiyyətlərdən isə qətiyyətli, dözümlü, nizam-intizamlı olması bəyənilədir. Yaxşı olar ki, (hərbçi) zabit qeyri-təqlidçi olsun.

Astagəl birinin tennisçi olması daha çətindir. Lakin şahmatda uğurlu olması asandır. Sanqvinikə oturaq iş tapşırmaq ona "suyun üstü ilə qaçmaqdan" daha çətin görünə bilər.

İş və vəzifələr bölüşdürülərkən fizioloji durumu ilə yanaşı, hərbçinin sinir sisteminin fəaliyyəti, xarakterik xüsusiyyətləri də dəqiq tədqiq olunmalıdır.

Bütün bunlarla kiçik hərbi kollektivin səmərəli fəaliyyəti üçün (məhdud gəmi, təyyarə heyəti, döyüş postunda) müxtəlif temperamentli şəxslərin toplanması məqsədəuyğundur. Optimal, işgüzar və psixoloji fəaliyyət üçün bu, daha əlverişlidir.

Sonda ordu daxilində temperamentlərin bioloji üstünlüklərinə bir daha nəzər yetirək:

Sanqvinik təsir etməyi bacarır.

Fleqmatik fokuslanır, dözümlüdür.

Melanxolik səssiz, dəqiq və məsuliyyətlidir.

Xolerik rəhbərlik ruhundadır, cürətlidir.

**Amil MƏHƏRRƏMOĞLU**
**hərbçi-psixoloq**

Heç kim unudulmur

# Şəhidlərimizin ruhu hər zaman bizimlədir

*Vətən anlayışı bizə yalnız doğulduğumuz torpağa bağlı olmağı deyil, həm də birliyin və həmrəyliyin nə qədər böyük güc olduğunu öyrədib. Tarix boyu xalqımızın ən böyük sərvəti vətənpərvərliyi, Vətən uğrunda bir yumruq kimi birləşməyi, həmrəyliyi olub. "Hamımız birimiz üçün, birimiz hamımız üçün" şüarı minlərlə qəhrəman övladın həyatında gerçəyə çevrilmiş bir amal kimi yaşayıb. Vətən sevgisi hər birimizin qəlbində yaşayan ülvi hissdir. Vətən anaların göz yaşında, ataların qürur dolu baxışlarında, övladların ümidlə baxdığı gələcəkdə yaşayan müqəddəs bir əmanətdir.*



Arif Firuz oğlu Abbaslı 15 dekabr 1993-cü il tarixində Şərur rayonunun Qıvraq kəndində anadan olub. 2000-2008-ci illərdə Qıvraq kənd tam orta məktəbində təhsil alıb. Hələ gənc yaşlarından hərb sənətini seçərək həyatını Vətənin keşiyində dayanmağa həsr edib. 2009-2012-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2012-2016-cı illərdə isə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. Xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirən Arif Abbaslı ölkəmizdə və ölkədən kənarda bir çox təlim kurslarında iştirak edib. Arif keçdiyi bütün kurslarda uğurla iştirak edərək Xüsusi Təyinatlı Qüvvələrin mənsublarına xas xüsusiyyətlərin hər birinə malik hərbçi kimi formalaşıb. Yüksək döyüş hazırlığı, fiziki dözümlülük, çeviklik, analitik düşüncə, çətin şəraitdə qərar əldə etmə və digər bacarıqlara yiyələnib. Xüsusi Təyinatlı Qüvvələrin mənsubları yüksək fiziki, mənəvi və psixoloji hazırlığa malik, müasir döyüş mühitinin ən mürəkkəb tapşırıqlarını yerinə yetirə bilən peşəkar hərbçilərdir. Onlar həm fiziki gücü, həm də yüksək intellektual səviyyəsi ilə seçilməlidirlər. Arif də bu xüsusiyyətlərin hər birini iştirak etdiyi döyüş əməliyyatlarında nümayiş etdirib.

Arif 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsində Murovdağın, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. O, oktyabrın 12-də Füzuli döyüşləri zamanı şəhid olub. İndiki Hərbi Memorial Məzarlıqda dəfn olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, düşmənin canlı qüvvəsinin, döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərdiyinə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə baş leytenant Abbaslı Arif Firuz oğlu ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Arifin həyatı, xidməti və şərəfli döyüş yolu haqqında yazı hazırlamaq məqsədilə ailəsinin yaşadığı ünvana yollandıq. Yol boyu qeyri-ixtiyari kövrəlirəm. Çünki Arif çox gənc yaşda dünyadan köçüb. Arifdən isə geriyə ən böyük əmanət gözünün ağı-qarası, Ləman adlı balaca qızı qalıb. Onun adı çəkiləndə hər kəsin səsində həm qürur, həm də dərin bir nisgil duyulur. İndi yarımçıq qalan bir həyat hekayəsini yazmağa doğru yol almışam. Haradan başlayacağımı, necə yazacağımı düşünürəm, amalım isə ailəsinin, onu tanıyanların xatirələrini qələmə alaraq Arif kimi oğullarımızı oxuculara tanıtmaq və onların ruhunu şad etməkdir.

Şəhidin həyat yoldaşı Könül xanımla salamlaşdıq. Evlərinə daxil olanda əvvəlcə Arifin əziz xatirəsinə həsr olunan guşəyə baxdıq, onun ruhuna dualar oxuduq. Könül xanımın anası da bizimlə həmsöhbət oldu. Sözlər boğazımda düyünlənirdi. Nə sual verəcəyimi, söhbətə necə başlayacağımı düşünürdüm. Şəhidlər barəsində yazanda sözlər belə aciz qalır. Qələm ağırlaşır, sətirlər donur. Çünki bu, adi müsahibə deyil, qarşımda yarımçıq qalan bir ömür, susmayan bir nisgil, eləcə də uca bir qürur dayanır. Bu evdə hər kəlmə həm ağrı, həm də Vətən sevgisi ilə yoğrulub. Masaya əyləşəndən sonra otaqda bir müddət səssizlik hökm sürdü. Adi susqunluqdan fərqlənirdi. Kəlmələrin yetmədiyi, hisslərin isə boğaza düyünləndiyi ağır sükut idi. Könül xanım asta səslə, kövrələrək danışmağa başladı. Sanki hər cümləni ürəyinin dərinliyindən iplə çəkib çıxarırdı. Deyir ki, Arif hər zaman Vətəni hər şeydən üstün tuturdu. Hərbçi olmağı müqəddəs borc bilirdi. Evdə olanda belə xidmətindən, əsgərlərdən, keçdiyi təlimlərdən danışırdı. Həyatını bu müqəddəs peşəyə bağlamışdı. Vətənini o qədər sevirdi, peşəsinə o qədər bağlı idi ki, həmişə arzu edirdi ki, adı tariximizə əbədi yazılsın. Arzusuna çatdı… (kövrəlir).

Könül xanım danışdıqca, baxışları tez-tez Arifin divardakı fotosuna yönəlirdi. Elə bil Ariflə yenidən göz-gözə gəlir, sözlərini ona çatdırırdı. Deyir, sonuncu dəfə danışanda səsində qəribə bir rahatlıq var idi. "Narahat olma, hər şey yaxşı olacaq" demişdi. Həmişəki kimi onu sakitləşdirməyə çalışmışdı. O isə həmin cümləni indi də qulaqlarında eşitdiyini deyir, sanki Arif hələ də evdədir, qapını açıb içəri girəcək.

İndi isə bu evdə Arifin xatirələri, yoldaşına və qızına dediyi xoş sözləri, birlikdə keçirdikləri günlərin fotoları yaşayır, həm böyük bir boşluq, həm də böyük bir qürur. Bu



hisslər bir-birinə qarışıb, nəmli gözlərdə kədər də duyulur, qürur da.

Arifin qayınanası Şəlalə xanım söhbətə qoşulanda biixtiyar səsi titrədi. Deyir ki, Arif təkcə bacarıqlı hərbçi yox, həm də yaxşı ömür-gün yoldaşı, ailəsinə sadiq, hər kəsə hörmətlə yanaşan bir oğul idi. Onu tanıyan hər kəsin qəlbinə yol tapmağı bacarırdı.

"Qızımın taleyi onunla bağlananda bilirdim ki, etibarlı bir insanın yanındadır", - deyə xatırlayır Şəlalə xanım. "Amma heç ağlıma gəlməzdi ki, bu qədər uca, bu qədər ağır bir tale yazılacaq… Arif həyatda iki şeyi arzu edirdi, bir Vətən torpaqları işğaldan azad olunsun, bir də qızı olsun. Qızı doğulanda yaşadığı sevinc hissini sözlə ifadə etmək mümkün deyildi. Artıq ərazi bütövlüyümüz də tam bərpa olunub. Hər iki arzusu da reallaşan Arifin ruhu şaddır indi".

Bu sözləri deyərkən otaqda yenə o tanış sükut çökdü. Bu sükutla illərdir ki, tanışam. Hər dəfə şəhid ailələri ilə həmsöhbət olarkən, bu tanış sükutda mənim də payım olur. Həmin sükutda həm dərd var, həm də böyük bir qürur. Bu şəhid ailələrinə xas olan, sözlə izahı çətin bir qürur hissidir…

Söhbətin ən kövrək anı isə şəhidimizin qızı balaca Ləman haqqında danışanda yaşandı. Könül xanım deyir ki, Ləman atasının adını eşidəndə hələ də xüsusi bir sevinclə başını qaldırır. Fotoya baxıb "Atam qəhrəmandır" deməyi artıq öyrənib. Amma "qəhrəman" sözünün arxasında gizlənən ayrılığın ağırlığını uşaq qəlbi hələ tam anlamır. O, atasını sanki uzaq bir yerdədir, bir gün qayıdacaq biri kimi təsəvvür edir.

Könül xanım xatırlayır ki, Arif qızına hədsiz bağlı idi. Evə gələn kimi hərbi formasını dəyişməyə belə tələsmədən onu qucağına alar, uzun müddət bağrına basardı. "Sən mənim güc mənbəyim, ilham pərimsən", - deyərdi.

İndi isə həmin günlər sadəcə xatirələrdə qalıb. Ləman da böyüdükcə atasını elə bu xatirələrdən, fotolardan, bu danışılan hekayələrdən tanıyacaq.

Arifin xatirə guşəsinə baxarkən anlayıram ki, şəhidlik bir insanın həyatı ilə ölçülmür. O, bir uşağın ölməyən ümidlərinə, bir qadının ömür boyu daşıyacağı həsrətə, bir ailənin taleyinə çevrilir. Amma bütün bu ağrının içində sarsılmaz bir fəxarət də var. Bu, müstəqilliyimiz, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda qurban verilmiş bir ömrün ucalığıdır. Bu ucalıq bütün nəsillərin yaddaşında, danışılan hər xatirəsində heç vaxt silinməyən bir müqəddəslik kimi qalacaq…

Şəhid Arif Abbaslının ata-anası və qardaşı Naxçıvanda olduğu üçün onlarla görüşə bilmədim. Lakin belə qorxmaz, mərd, igid, milli-mənəvi dəyərlərimizə bağlı olan vətənpərvər ruhda oğul böyüdən qəhrəman valideynləri tanımaq və onların da düşüncələrini öyrənmək üçün videoformatda zəng etdim.

Zəngimi atası açdı. Ekranda illərin yükünü çiyinlərində daşıyan, amma baxışlarında böyük bir fəxarət gizlənən bir ata gördüm. Səsi sakit idi, amma hər kəlməsinin arxasında dərin bir nisgil duyulurdu.

Şəhidin atası Firuz kişi oğlu haqqında danışarkən bildirir ki, Arif uşaqlıqdan fərqli idi. "Çox sakit təbiətli, qoçaq və məsuliyyətli, dostluğa çox etibarlı biri idi. Heç bir işdən, çətinlikdən qaçan deyildi. Elə bir iş olmazdı ki, mən bacarmaram desin. Bütün işlərimdə əlimdən tuturdu. Heç vaxt kiminsə xətrinə dəyməzdi. Fiziki cəhətdən güclü idi, idmanla məşğul olmağı sevirdi. Böyüklü-kiçikli hər kəsin qəlbinə yol tapa bilirdi".

Atası sözlərinə davam edərək deyir ki, hərbçi olmaq arzusu Arifin ürəyində çox erkən yaşlardan yaranmışdı. "Hərbçi olmaq öz arzusu olub. Məzuniyyətə gələndə mənimlə uzun-uzun xidmətindən danışardı. Elə sevgi və həvəslə danışardı ki, hiss edirdim ki, bu peşə onun həyat yoluna, amalına çevrilib. Torpaqlarımızın azad olunmağını, onun uğrunda döyüşlərə atılmağı çox arzulayırdı. Necə deyərlər, niyyətin hara, mənzilin ora. Arzusu uğrunda döyüşdü və bu müqəddəs yolda şəhid oldu, adını tariximizə əbədi yazdırdı. Biz oğul itirdik, amma məğrur dayandıq, "Təki Vətən yaşasın" deyə bildik. Çünki bir Arif ölər, mini doğular, təki Vətənimiz var olsun".

Bu sözləri deyərkən səsi bir anlıq titrədi, sonra yenə toparlandı. O anda ekranın o biri tərəfindən eşitdiyim hüznlü səsdə həm yanmış bir qəlb, həm də dağ kimi qürur hiss olunurdu.

Şəhidimizin anası Əntiqə xanım danışırdı. Səsi ilk anda titrəyirdi, amma hər kəlməsi həm sevgi, həm də qürurla dolu idi. Oğlunun uşaqlıq xatirələrini, gənclik illərini, bir yerdə keçirdikləri xoş günləri danışırdı. Oğlunun şəhid olmasıyla bağlı danışarkən gözləri doldu, səsi titrədi, sözləri boğazında düyünləndi. Özündə təpər tapıb sözlərinə "Biz onunla fəxr edirik", - deyə davam etdi. "Oğlum indi bir ailənin yox, bütün xalqın qüruru oldu. Onun kimi minlərə şəhidimizin əziz xatirəsi bizimlə əbədi yaşayacaq".

Anasından sonra Arifin qardaşı Şaiq də düşüncələrini bölüşdü. Uşaqlıq xatirələrindən söz açdı. Onunla keçirdiyi günlərdən, birgə məktəbə getmələrindən, ona hər zaman arxa-dayaq olduğundan danışdı. Qeyd edək ki, Şaiq də hərbi qulluqçudur. Qardaşının yolunu davam etdirir. "Arifin xidməti, hərb peşəsinə olan bağlılığı və sevgisi, şərəfli döyüş yolu mənim üçün nümunədir", - deyərək sözlərini tamamlayır qardaşı.

Zəng bitəndə uzun müddət telefonun qaranlıq ekranına baxdım. Arifin balaca qızı Ləman, həyat yoldaşı Könül, valideynləri və qardaşı ilə yaşanan xatirələri əbədiyyət nişanələridir. Onun əziz xatirəsi hər sözdə, hər hərəkətdə, hər ürək döyüntüsündə hiss olunur. Şəhidlərin hekayəsi döyüş meydanında bitmir. Bu hekayələr anaların dualarında, ataların məğrur duruşunda, yaxınlarının susqun qürurunda davam edir. Arif kimi igid oğullarımızın döyüş yolu xalqımızın qəhrəmanlıq salnaməsinə əbədi həkk olunub. Onların həyatları yarımçıq qaldı, amma adları, əməlləri və qoyduğu əmanətlər əbədidir. Hər dəfə onların adları çəkiləndə, onlar haqqında yazılan hekayələri oxuyanda bir daha anlayırıq ki, şəhidlərimizin ruhu hər zaman bizimlədir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

# Gənclərin uğuru və Azərbaycanın idman gələcəyi

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin idmana və idmançılara göstərdiyi ardıcıl dəstək nəticəsində ölkəmizdə bu sahə sürətlə inkişaf edir. Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) məhz bu diqqət və qayğının nəticəsi olaraq müasir standartlara uyğun fəaliyyət göstərir və peşəkar idmançıların hazırlanması üçün geniş imkanlara malikdir.

Klubun idmançıları beynəlxalq arenalarda uğurla çıxış edərək Azərbaycan idmanının nüfuzunu artırırlar. MOİK həm respublika, həm də beynəlxalq yarışlarda Azərbaycan Ordusunu layiqincə təmsil edir. Bununla yanaşı, gənc nəslin fiziki hazırlığının gücləndirilməsi və vətənpərvərlik ruhunda formalaşdırılması istiqamətində də məqsədyönlü işlər aparılır.

Şərəfli yolunu yarandığı gündən bu günədək davam etdirən klub Olimpiya oyunlarında, eləcə də Dünya və Avropa çempionatlarında iştirak edərək idmançılarımız üçün medallar qazanıb. Qazandığı medalların sayına görə, MOİK daim Gənclər və İdman Nazirliyi tərəfindən fərqlənən idman klubları sırasına daxil edilib.

1995-ci ildən Beynəlxalq Hərbi İdman Şurasının (CISM) fəal üzvü olan MOİK 1948-ci ildən fəaliyyət göstərən bu qurumun üzvlüyündə yer alır. Hazırda 137 ölkəni əhatə edən və qitələrarası, eləcə də regional yarışları təşkil edən ən böyük idman təşkilatlarından biri sayılan CISM, MOİK üçün beynəlxalq əməkdaşlıq və təcrübə imkanları yaradır.

Mərkəzi Ordu İdman Klubunun uğurları çoxdur, illər ərzində qazandığı medallar, beynəlxalq yarışlarda göstərdiyi çıxışlar və yetirmələrinin nailiyyətləri klubun şöhrətini daha da artırıb.

Ordu klubunda fəaliyyət göstərən komandanın baş məşqçisi Polad Həsənov bildirdi ki, MOİK-də 20 idman növü üzrə bölmələr fəaliyyət göstərir və Azərbaycan milli komandasının əksər üzvləri klubun təmsilçiləridir. Olimpiya, Dünya, Avropa və digər beynəlxalq yarışlarda əldə edilən medalların bir hissəsi isə birbaşa MOİK-in idmançılarının payına düşür.

Daha sonra qeyd etdi ki, ölkəmizdə idmana göstərilən dövlət qayğısı və dəstək, eləcə də idmançılarımızın mütəmadi və uğurlu çıxışları nəzərə alınaraq, Beynəlxalq Hərbi İdman Şurasının (CISM) qərarı ilə 2004-cü ildə Bakıda hərbçilər arasında cüdo, 2006-cı ildə güləş, 2008-ci ildə isə boks üzrə dünya çempionatları təşkil edilmişdir. Həmçinin 2011-ci ildə Şuranın Avropa Assambleyası, 2013-cü ildə isə futbol üzrə dünya kuboku yarışı keçirilib.

Futbol yarışında Azərbaycan Respublikasının Silahlı Qüvvələrini təmsil edən hərbçilərdən ibarət yığma komanda fəal iştirak edərək, 16 kollektiv arasında dördüncü yerə layiq görülüb və ən yaxşı komandalar sırasında kubokla mükafatlandırılıb. Bu uğur Silahlı Qüvvələrimizi təmsil edən yığma komandanın Azərbaycan futbol tarixində əldə etdiyi ən yüksək nailiyyət kimi qiymətləndirilir.




Mərkəzi Ordu İdman Klubunun nümayəndələri hər il Beynəlxalq Hərbi İdman Şurasının Avropa Assambleyasında və Beynəlxalq Baş Assambleyasında iştirak edirlər. MOİK isə Azərbaycan Silahlı Qüvvələrini beynəlxalq və respublika səviyyəli yarışlarda peşəkar şəkildə təmsil etməklə yanaşı, gənclərin vətənpərvərlik ruhunun və fiziki hazırlığının yüksəldilməsində, müxtəlif idman növləri üzrə fəal fəaliyyət göstərir.

Komandanın kapitanı, oyunçu Elşad Şirzadovun sözlərinə görə, MOİK-də basketbol məşqləri həqiqətən fərqlidir. Hər məşq bir sınaq, hər ötürmə və hər zərbə daha yaxşı olmaq üçün bir fürsətdir. Məşqçilərimiz həm ciddi, həm də həvəsləndiricidirlər, bizə texnikanı öyrədir, fiziki hazırlığımızı maksimuma çatdırırlar. Burada hər kəsin bacarığı nəzərə alınır, hər idmançıya fərdi yanaşma var və beynəlxalq yarışlara çıxmaq imkanı motivasiyamızı daha da artırır.

"Hamımızın məqsədi birdir, komandamızla birlikdə ölkəmizi layiqincə təmsil etmək, meydançada qələbə qazanmaq və MOİK-in adını ucaltmaq istəyirik. Bəzən məşqlər çox ağır olur, temp yüksəkdir, amma meydançada hər saniyə, hər ötürmə və hər zərbə hesab olunur. MOİK-də məşq etmək mənim üçün yalnız idmançı kimi böyümək deyil, həm də insan kimi inkişaf etmək deməkdir. Burada intizam, komanda ruhu və səbir öyrənirsən. Klub mənim üçün həm ikinci ailə, həm də gələcək uğurlar üçün əsas məkandır", - deyə E.Şirzadov bildirdi.

"MOİK-də hər məşq meydança ilə həyatın arasında bir körpü kimidir. Buraya gəldiyin andan hər şey ciddi olur, amma elə ciddi ki, sən özünü sınayırsan, bacarıqlarını kəşf edirsən. Məşqçilərimiz hər addımda yanımdadır, amma, eyni zamanda, sənə meydan oxuyur, həmişə daha yaxşı olmağı tələb edir. Burada yalnız fiziki hazırlıq deyil, oyun intellekti, komanda ruhu, sürət və reaksiyalar da inkişaf edir", - deyə sözlərinə əlavə etdi.

Sonda bildirdi: "Hər qələbə, hər uğur sadəcə xal və medal demək deyil. Bu, komandamızın, klubumuzun və bizim əziyyətimizin nəticəsidir. Beynəlxalq arenaya çıxdığımızda hiss edirsən ki, bütün məşqlər, bütün zəhmət bir məqsəd üçün idi - ölkəmizi layiqincə təmsil etmək və qələbə sevinci yaşatmaq.

Bəzən məşqlər ağırdır, bəzən yorğunluq dizlərinə düşür, amma meydançaya çıxdığın anda hər şey unudulur. MOİK mənim üçün yalnız idman klubu deyil, həm ailə, həm də gələcəyin təməlidir. Burada hər gün özünü daha güclü, daha sürətli, daha hazırlıqlı hiss edirsən və hər addımında klubun adını ucaldırsan".

12 ildir basketbolla məşğul olan İsmayılov Səidin sözlərinə görə isə MOİK-də məşq etmək başqa şeydir, hər gün meydançaya çıxmaq özünü sınamaq deməkdir. Burada hər məşqdə təzyiq var, amma məhz o təzyiq sənə güc verir, səni irəli aparır. Məşqçilərimiz yalnız öyrətmir, səhvlərini göstərir və hər zaman daha yaxşı olmağı tələb edir. Hər ötürmə, hər dribl və hər zərbə bir dərsdir, sadəcə texnika yox, həm də səbir və fokus öyrənirsən.

Beynəlxalq yarışlara çıxanda hiss edirsən ki, çəkdiyin zəhmət, tökdüyün tər boşuna deyilmiş. Hər medal, hər qələbə klubun və komandamızın adını yüksəldir, həm də sənin özünü göstərmək fürsətindir. MOİK yalnız idmançı hazırlamır, burada komanda ruhunu, həyatda özünə inamı da öyrənirsən. Klub hamımız üçün həm meydança, həm də ikinci ev kimidir - burada böyüyürsən, öyrənirsən, inkişaf edirsən və hər gün özünü sınayırsan.

İdmançılarımız bildirirlər ki, ölkədə idmana göstərilən yüksək qayğı, gənclərin inkişafı və uğur qazanması üçün hər sahədə yaradılan şərait dövlət başçısına təşəkkürlərini ifadə etməyə əsas verir. Müsahiblərimiz onu da vurğulayırlar ki, hərbçilərimizin idmanla peşəkar səviyyədə məşğul olmalarında Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu (MOİK) böyük rol oynayır.

MOİK-də peşəkar və təcrübəli məşqçilər tərəfindən hazırlanmış hərbçi-idmançılar müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir, Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında, eləcə də digər beynəlxalq turnirlərdə Azərbaycan üçün qələbə sevinci yaşadırlar. Həmçinin Azərbaycan milli yığma komandasının üzvlərinin böyük əksəriyyəti Mərkəzi Ordu İdman Klubunun yetirmələridir.

Müsahibəmizdən göründüyü kimi, MOİK yalnız idmançı yetişdirmir, həm də gənclərdə intizam, komanda ruhu və vətənpərvərlik hissini formalaşdırır. Klubun fəaliyyətinə, idmançıların uğurlarına və yaradılan şəraitə nəzər yetirdikdə aydın olur ki, ölkədə idmana göstərilən qayğı həm fiziki hazırlığa, həm də peşəkar inkişaf üçün geniş imkanlara xidmət edir.

Bu uğurlar heç də təsadüfi deyil. Ölkəmizdə gənclərin hərtərəfli inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti nəticəsində gənclərin təhsil alması, idmanla məşğul olması, öz bacarıqlarını nümayiş etdirməsi üçün geniş imkanlar yaradılıb. Müasir idman infrastrukturu, dövlət proqramları və müxtəlif layihələr gənclərin sağlam, vətənpərvər ruhda formalaşmasına xidmət edir. Nəticədə Azərbaycan gəncləri müxtəlif beynəlxalq yarışlarda uğur qazanaraq ölkəmizin nüfuzunu daha da yüksəldirlər.

Bu siyasətin nəticəsi olaraq gənclər ölkənin ictimai, mədəni və idman həyatında daha fəal iştirak edirlər. Dövlət tərəfindən yaradılan imkanlar onların bacarıqlarının üzə çıxmasına, peşəkar inkişafına və cəmiyyətə faydalı vətəndaş kimi formalaşmasına mühüm töhfə verir. Gənclərin əldə etdiyi nailiyyətlər isə göstərir ki, həyata keçirilən gənclər siyasəti öz müsbət nəticələrini verir və ölkəmizin gələcəyi üçün möhkəm zəmin yaradır.

Eyni zamanda, dövlət tərəfindən həyata keçirilən məqsədyönlü proqramlar gənclərin potensialının üzə çıxarılmasına və onların müxtəlif sahələrdə uğur qazanmasına geniş imkanlar yaradır. Gənclərə göstərilən diqqət və qayğı onların Vətənə sədaqət ruhunda formalaşmasına, ölkənin inkişafında fəal iştirak etməsinə şərait yaradır. Bu isə Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu bir daha təsdiq edir.

Biz də gənclərimizin uğurlarını izlədikcə sevinirik, fərəhlənirik və bir daha ölkəmizlə, ordumuzla, hərbi qulluqçularımızla qürur duyuruq. Bu cür yüksək nəticələr göstərir ki, dövlət rəhbərliyi hər vətəndaşa, hər peşəyə xüsusi diqqət ayırır, onların bacarıqlarının inkişafı üçün bütün imkanları təmin edir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**

## İdman

### Azərbaycanın 5 güləşçisi Avropa çempionatında medal qazanıb



Serbiyanın Zrenyanin şəhərində keçirilən U-23 Avropa çempionatında sərbəst güləş yarışları davam edir.

Azərbaycan təmsilçilərindən Vasif Bağırov (57 kiloqram) ilə Səbuhi Əmiraslanov (79 kiloqram) gümüş medal qazanıblar.

Musa Ağayev (66 kiloqram), Ramik Heybətov (70 kiloqram) və Zəfər Əliyev (97 kiloqram) bürünc medalla kifayətləniblər.

Qeyd edək ki, U-23 Avropa çempionatına martın 15-də yekun vurulacaq.

### Azərbaycan cüdoçuları Qran-Pri turnirində 4 medal qazanıblar



Avstriyanın Linz şəhərində keçirilən cüdo üzrə Qran-Pri turniri başa çatıb.

Azərbaycan millisi beynəlxalq yarışda 4 medal qazanıb. Mübarizənin son günündə Camal Qamzatxanov bürünc mükafata yiyələnib. 100 kiloqramdan artıq çəki dərəcəsində çıxış edən cüdoçu üçüncü yer uğrunda qarşılaşmada Gürcüstan təmsilçisi İrakli Demetraşvili üzərində əzmkar qələbə qazanıb.

Xatırladaq ki, daha əvvəl Ruslan Paşayev (66 kiloqram) qızıl, Vüsal Qələndərzadə (81 kiloqram) gümüş, Ömər Rəcəbli (81 kiloqram) isə bürünc medala yiyələnib.

Yekunda 1 qızıl, 1 gümüş və 2 bürünc medal əldə edən milli komanda 59 ölkə arasında ümumi hesabda üçüncü, kişilərin yarışında isə birinci yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Babayev Vasif Vidadi oğluna verilmiş SX № 0023999 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmişov Əlizamin Səyyaf oğluna verilmiş SX № 0865065 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 276
Nüsxə 3638